# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2026–2030-cu illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 iyul tarixli 1100 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə**

“Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2026–2030-cu illər üçün Milli Fəaliyyət Planı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 iyul tarixli 1100 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi:

1.1. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırmaqla, Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 15 iyul tarixli 1100 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2026–2030-cu illər üçün Milli Fəaliyyət Planı”nın (bundan sonra – Milli Fəaliyyət Planı) 8.1.1-ci yarımbəndinin icrası ilə bağlı təkliflərini 2027-ci il iyulun 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırmaqla, Milli Fəaliyyət Planının 8.1.2-ci yarımbəndinin icrası ilə bağlı təkliflərini 2027-ci il iyulun 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi,

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Azərbaycan Respublikasının Baş Prokurorluğu və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırmaqla, Milli Fəaliyyət Planının 8.1.4-cü yarımbəndinin icrası ilə bağlı təkliflərini 2027-ci il iyulun 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırmaqla, Milli Fəaliyyət Planının 8.1.5-ci yarımbəndinin icrası ilə bağlı təkliflərini 2027-ci il iyulun 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları (qurumları) ilə razılaşdırmaqla, Milli Fəaliyyət Planının 8.4.1-ci yarımbəndinin icrası ilə bağlı təkliflərini 2028-ci il iyulun 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (bundan sonra – Mərkəz):

3.1. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini təmin etmək məqsədilə operatoru olduğu “e-monitorinq” Portalı çərçivəsində “Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2026–2030-cu illər üçün Milli Fəaliyyət Planı”nın icrasının monitorinqi və hesabatlılıq modulu”nun (bundan sonra – Modul) formalaşdırılmasını iki ay müddətində təmin etsin və 2027-ci ildən Milli Fəaliyyət Planının monitorinqini və qiymətləndirilməsini Modul üzərindən həyata keçirsin;

3.2. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlər üzrə icraçı orqanlar (qurumlar), şəhər və rayonlar, icra müddətləri, eləcə də layihələrlə bağlı məlumatlar və digər zəruri göstəricilər təsnifatlaşdırılmaqla, mövcud vəziyyət barədə informasiyaları təmin edən və hesabatlılığı mümkün edən müvafiq bölmələrin Modulda yaradılmasını təmin etsin;

3.3. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqinin nəticəsi barədə məlumatları 2027-ci ildən başlayaraq ildə bir dəfə, hər il aprelin 30-dək Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə təqdim etsin;

3.4. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının qiymətləndirilməsinin nəticəsi barədə məlumatları 2031-ci il iyunun 30-dək Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə təqdim etsin.

4. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlər üzrə əsas icraçı orqanlar (qurumlar):

4.1. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin aidiyyəti üzrə icrası məqsədilə əsas icraçı qurumların rəhbərlərinin müavinlərindən ibarət məsul şəxsləri və müvafiq struktur bölmələrin rəhbərlərindən ibarət cavabdeh şəxsləri təyin edərək onlar barədə məlumatı on gün müddətində Mərkəzə təqdim etsinlər;

4.2. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin nəticə indikatorları üzrə hədəf göstəriciləri də müəyyən edilməklə illər üzrə bölgüsünü iki ay müddətində indikatorlar cədvəlinin nümunəvi formasına uyğun hazırlayıb Mərkəzlə razılaşdırmaqla, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə təqdim etsinlər;

4.3. monitorinqin və qiymətləndirmənin həyata keçirilməsi məqsədilə Mərkəzə təqdim edilməsi üçün Milli Fəaliyyət Planında nəzərdə tutulmuş layihələrin icrası ilə bağlı müvafiq məlumatların "Layihə idarəetməsi" moduluna 2027-ci ildən rübdə bir dəfə, növbəti ayın 15-dək, tədbirlər üzrə ilin yekunları barədə məlumatların isə 2027-ci ildən başlayaraq hər il fevralın 25-dək Modulda yerləşdirilməsini təmin etsinlər.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Milli Fəaliyyət Planının həyata keçirilməsi üzrə Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərlə bağlı layihələrin maliyyələşdirilməsi dövlət büdcəsində nəzərdə tutulduğu təqdirdə, onların ilkin ümumi dəyəri, dövlət büdcəsində nəzərdə tutulmuş, ayrılmış, istifadə olunmuş və növbəti illərə tələb olunan vəsait barədə məlumatların hər rübdən sonrakı ayın 5-dək Modulda yerləşdirilməsini təmin etsinlər.

6. Bu Sərəncamın 1-ci hissəsinin icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinə, 2-ci hissəsinin icrası Sosial məsələlər şöbəsinə həvalə edilsin.

7. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, " 31 " " iyul " 2026-cı il

№ 567s